UOT 338.23

Nizami Cəlal oğlu QAFAROV
Azərbaycan Kooperasiya Universiteti
“Aqrar iqtisadiyyat və turizm işi”
kafedrasının professoru, i.e.d.
ORCID-0000-0003-1583-3024
e-mail:qafarovnizami@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.004.311

YAŞIL KƏND TƏSƏRRÜFATINA İNSTİTUSİONAL DƏSTƏYİN XÜSUSİYYƏTLƏRİ VƏ İQTİSADİ-METODOLOJİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi. Yaşıl kənd təsərrüfatına institusional dəstəyin xüsusiyyətləri, kənd təsərrüfatının yaşıllaşdırılması prinsipləri, vəzifələri, yaşıl kənd təsərrüfatının ekoloji və iqtisadi göstəricilərinin müxtəlif əlamətləri, Azərbaycanda əhalinin tələbatını tam ödəmək üçün keyfiyyətli məhsulların istehsalı, kənd təsərrüfatı istehsalının yaşıllaşdırılması yollarının işlənib hazırlanması istiqamətində araşdırma aparmaq və yaşıl kənd təsərrüfatına institusional dəstəyin zəruriliyi yönümündə tövsiyələr hazırlamaqdır.

Tədqiqatın metodologiyası: Məqalə hazırlanarkən müəllif elmi-tədqiqat üsullarından, o cümlədən müşahidə, müqayisə, təhlil, məntiqi ümumiləşdirmə metodlarından faydalanmışdır. Həmçinin Azərbaycanda yaşıl kənd təsərrüfatına institusional dəstək və davamlı inkişaf siyasətinin strateji yanaşması da tədqiqatın metodoloji əsasını təşkil etmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, qeyd edilən təklif və tövsiyələr ölkəmizdə kənd təsərrüfatının daha yüksək gəlir səviyyəsinə malik iqtisadi cəhətdən səmərəli fəaliyyət sahəsi olmasına imkan verər, kənd təsərrüfatının ayrı-ayrı sahələrində ekoloji təmiz məhsul istehsalının daha da inkişaf etdirilməsi istiqamətində layihələrin hazırlanmasında faydalı ola bilər.

Tədqiqatın nəticələrinə dair onu qeyd etmək olar ki, kənd təsərrüfatının yaşıllaşdırılmasına institusional yanaşmaların zəruriliyi, ekoloji kənd təsərrüfatı istehsalı, məhsulların emalı və paylanması prosesində çirklənmənin bütün formalarının minimuma endirilməsi, təbii resurslara qənaət edən rəqəmsal innovativ texnologiyaların tətbiqinə, ekoloji və iqtisadi göstəricilərdən səmərəli istifadəyə dair innovativ istiqamətlər təqdim edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi: Azərbaycanda yaşıl kənd təsərrüfatına institusional dəstəyin zəruriliyinə və davamlı inkişafına dəstək verə biləcək yeni elmi yanaşmalar məqalədə yer almışdır.

Açar sözlər: yaşıl kənd təsərrüfatı, institusional dəstək, ətraf mühit, ekoloji təmiz məhsul, ekoloji və iqtisadi göstəricilər.

Giriş

Son illər kənd təsərrüfatının yaşıllaşdırılması prosesini dövlət siyasətinin ən mühüm prioriteti kimi müəyyən edən bir sıra mühüm strateji sənədlər qəbul edilib. Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub [1]. Hazırda dövlətin iqtisadi siyasətinin məqsədləri kimi ölkə əhalisinin sağlamlığının qorunması istiqamətində kənd təsərrüfatı istehsalının və istehlak bazarının yaşıllaşdırılması problemlərinə xüsusi

diqqət yetirilir. Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin ətraf mühitin mühafizəsi fəaliyyətləri üçün ekoloji cəhətdən təhlükəsiz istehsalın təmin edilməsi və bazar stimullarından geniş istifadə edilməsi istiqamətində yeni institusional yanaşmaların formalaşdırılması bir zərurət təşkil edir.

Kənd təsərrüfatının yaşıllaşdırılmasına institusional yanaşmaların zəruriliyi

Müasir dünyada kənd təsərrüfatı istehsalının yaşıllaşdırılması ərzaq təhlükəsizliyi problemi ilə yanaşı, cəmiyyətin inkişafının aktual problemlərindən birinə çevrilmişdir. Görünür, bu iki problem bir-birini istisna edir, lakin insan fəaliyyəti və onların yaşayış şəraiti həm təbii mühitə, həm də kənd təsərrüfatı istehsalı prosesinə, eyni zamanda istehsal olunan ərzaq məhsullarının təhlükəsizliyinə və keyfiyyətinə ekoloji münasibət tələb edir.

Cəmiyyətin inkişafının yaşıllaşdırılması, bazarın ekolojiləşdirilməsi və kənd təsərrüfatı istehsalının yaşıllaşdırılması problemlərinə xüsusi diqqət yetirilməsinə baxmayaraq, qeyd etmək lazımdır ki, bu gün tədqiqat məlumatları çox vaxt kifayət qədər ümumi, fraqmentli və bəzən ziddiyyətli müddəaları ehtiva edir. Buna görə də kənd təsərrüfatı istehsalının yaşıllaşdırılması və sahədə təbiətdən səmərəli istifadənin institusional təminatının öyrənilməsi problemi aktualdır.

Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin ətraf mühitin mühafizəsi fəaliyyətləri üçün ekoloji cəhətdən təhlükəsiz istehsalın təmin edilməsi və bazar stimullarından geniş istifadə edilməsi istiqamətində yeni institusional yanaşmaların formalaşdırılması zəruridir.

Bir sıra yerli və xarici iqtisadçı alimlərin tədqiqatlarının nəzərdən keçirilməsi kənd təsərrüfatına əsas institusional dəstəyin bir sıra növlərini ümumiləşdirməyə imkan verir.

1) Ətraf mühit baxımından liberallığı ilə seçilən kompensasiya mexanizmi. Buraya iqtisadiyyatın inkişafına mane olmayan ekoloji istiqamətin yüngül məhdudlaşdırıcı normaları daxildir. Bu mexanizmlərin mahiyyəti iqtisadi fəaliyyətin mənfi ekoloji nəticələrini aradan qaldırmaqdan ibarətdir.

2) Ekoloji tarazlıq, resursların qorunması və ətraf mühitə minimal mənfi təsir əsasında istehsalın inkişafından ibarət stimullaşdırıcı mexanizm. Onun mahiyyəti ekoloji məqsədlərə nail olmaq üçün bazar alətlərindən geniş istifadə etməkdir.

3) İnzibati (hüquqi, vergi, kredit siyasəti) və bazar alətlərinin birləşməsi ilə formalaşan sərt mexanizm.

Ancaq təcrübədə belə bir paylama kifayət qədər şərtidir. Bir qayda olaraq, onların sintezi müxtəlif amillərin təsiri altında baş verir. İnanırıq ki, ən təsirlisi həm stimullaşdırma alətlərini, həm də sərt tənzimləməni birləşdirən stimullaşdırıcı və sərt mexanizmin formalaşması labüddür.

Bu deyilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, kənd təssərrüfatında yaşıllaşdırmanın belə bir inteqrativ iqtisadi mexanizminin yaradılmasında institusional dəstəyə ehtiyac var ki, onun köməyi ilə ətraf mühiti qorumaq və iqtisadi artımı təmin etmək olar.

Kənd təsərrüfatı inkişaf etmiş ölkələrinin təcrübəsi dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün bazar mexanizmlərinin səmərəliliyini və qabiliyyətini nümayiş etdirir.

Kənd təsərrüfatının yaşıllaşdırılması üçün institusional dəstəyin mühüm komponenti qanunvericilik dəstəyidir. Aqrar sahənin yaşıllaşdırılmasının hüquqi əsası ölkənin əsas qanununda - insanı, onun həyatını, sağlamlığını, şərəf və ləyaqətini, toxunulmazlığını və təhlükəsizliyini ən yüksək sosial dəyər elan edən Azərbaycan Konstitusiyasında təsbit edilmişdir [2].

“Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununa görə, insan fəaliyyətinin təhlükəsizliyi Azərbaycanın davamlı iqtisadi və sosial inkişafının şərtidir. Bunun üçün hökumət ətraf mühitin mühafizəsinə, vətəndaşların sağlamlığının qorunmasına və onların ömrünün uzadılmasına, təbiətdən səmərəli istifadəyə və s. qayğı ilə yanaşır.

Qanunda göstərildiyi kimi ətraf mühitin mühafizəsinin əsas prinsipləri bunlardır:

a) ekoloji təhlükəsizlik tələblərinin prioriteti, təsərrüfat, idarəetmə və digər fəaliyyətləri həyata keçirərkən ekoloji standartlara, təbii ehtiyatlardan istifadə qaydalarına və məhdudiyyətlərinə riayət etmək öhdəliyi;

b) insanların həyatı və sağlamlığı üçün ekoloji cəhətdən təhlükəsiz mühitin təmin edilməsi;

c) ətraf mühitin mühafizəsi tədbirlərinin ehtiyat xarakterli olması;

ç) ətraf mühitin mühafizəsi, bərpa olunan təbii ehtiyatların istifadəsi və bərpası, ən son texnologiyaların geniş tətbiqi məsələlərində həllərin mürəkkəbliyinə əsaslanaraq maddi istehsalın yaşıllaşdırılması;

d) təbii obyektlərin və komplekslərin məkan və növ müxtəlifliyinin və bütövlüyünün qorunması;

e) ekologiya, sosial, təbiət və texniki elmlərin fənlərarası biliklərinin birləşməsinə və təbii mühitin vəziyyətinin proqnozlaşdırılmasına əsaslanan cəmiyyətin ekoloji, iqtisadi və sosial maraqlarının elmi əsaslarla əlaqələndirilməsi;

ə) ətraf mühitə təsirin qiymətləndirilməsi öhdəliyi;

f) həyata keçirilməsi təbii mühitin vəziyyətinə, əhalinin ekoloji dünyagörüşünün formalaşmasına təsir göstərən qərarların qəbulunda aşkarlıq və demokratiya;

g) təsərrüfat və digər fəaliyyətlərin təbii mühitə təsirinin elmi əsaslarla tənzimlənməsi;

h) təsərrüfat fəaliyyəti üçün təbii ehtiyatlardan ümumi istifadəyə görə pulsuz və xüsusi ödənişli olması;

x) ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində dəymiş zərərin ödənilməsi;

i) ərazilərin antropogen dəyişmə dərəcəsini, ekoloji vəziyyətə mənfi təsir göstərən amillərin birgə təsirini nəzərə alaraq ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə məsələlərinin həlli;

j) ətraf mühitin mühafizəsi məsələsində həvəsləndirmə və məsuliyyət tədbirlərinin birləşməsi;

k) geniş dövlətlərarası əməkdaşlıq əsasında ətraf mühitin mühafizəsi problemlərinin həlli;

q) Azərbaycanın Vergi Məcəlləsinə uyğun olaraq ekoloji verginin, sudan xüsusi istifadəyə görə icarə haqqının, meşə ehtiyatlarından xüsusi istifadəyə görə icarə haqqının, yerin təkindən istifadəyə görə icarə haqqının müəyyən edilməsi;

l) strateji ekoloji qiymətləndirmənin nəticələri nəzərə alınmaqla [3].

Azərbaycanın mövcud qanunvericiliyinə əsasən, hər hansı fəaliyyət növü, o cümlədən kənd təsərrüfatı istehsalı üçün prioritet tələb ekoloji təhlükəsizlik və təbiətin rasional idarə olunmasıdır. Ona görə də bu gün kənd təsərrüfatının yaşıllaşdırılması sadəcə zərurət deyil, qanunvericilik səviyyəsində təsdiq edilmiş tələbdir.

Ümumiyyətlə, bu gün dövlət aqrar siyasətinin əsas prinsipləri sırasında kənd təsərrüfatının yaşıllaşdırılması prinsiplərinin birləşdirilməsini nəzərdə tutur, yəni:

- torpaqların istifadəsi və mühafizəsi üzrə ümumdövlət proqramlarının, xüsusən torpaqların şumlanmasının azaldılması, onların su və külək eroziyasından mühafizə sistemləri, torpağın münbitliyinin bərpası və artırılması, aqromeşə təsərrüfatı və meliorasiya, zədələnmiş torpaqların rekultivasiyası üzrə proqramların həyata keçirilməsi və maliyyə təminatı, torpağın mühafizəsi sahəsində standartlaşdırma və tənzimləmə;

- torpağın münbitliyinin səmərəli mühafizəsi sisteminin və torpaq monitorinqi sisteminin tətbiqi, kənd təsərrüfatı torpaqlarının kompleks aqrokimyəvi sertifikatlaşdırılması;

- kənd təsərrüfatı məhsullarının və ərzaq məhsullarının istehsalı üçün resursa qənaət edən, təhlükəsiz və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinin təşviq edilməsi.

Təbiətdən səmərəli istifadə ilə bağlı normativ aktları ayrıca vurğulamaq lazımdır. Belə ki, kənd təsərrüfatı fəaliyyətində təbii ehtiyatlardan istifadəyə dair ekoloji tələblər Azərbaycanın Torpaq Məcəlləsində, Su Məcəlləsində və Yerin təki haqqında Qanunlar Məcəlləsində müəyyən edilmişdir.

Lakin, alimlərin fikrincə, onların tam işləməsi üçün kənd təsərrüfatı məhsullarının istehsalı və satışının yaşıllaşdırılması ilə bağlı daha çox normativ-hüquqi akt və direktivlərin qəbul edilməsi zəruridir.

İqtisad alim Ələvsət Əliyev “Yaşıl iqtisadiyyat”ın inkişafında istifadə oluna biləcək mexanizmlərin bəzi variantlarını belə qeyd edir: 1) ekoloji vergi islahatları və alətləri (karbon vergisi, vergi güzəştləri və ixtisarları); 2) intensiv çirkləndirməyə görə cərimə; 3) ekoloji layihələrin mükafatlandırılması üçün “yaşıl subsidiya”lar, qrantlar, kreditlər; 4) ekoloji cəhətdən zərərli fəaliyyətlərə subsidiyaların verilməsinin aradan qaldırılması; 5) birbaşa dövlət xərcləri (ekoloji təmiz

infrastruktur və ya təmiz texnologiya üçün tədqiqat və inkişaf (R D) fəaliyyətinin təşkili), dolayı dəstək (ictimai zəmanətlər və s.) [4] .

Fikrimizcə, ekoloji məhsulların istehsalı üzrə fəaliyyətin həyata keçirilməsi üçün məcburi şərt həm istehsal prosesində, həm də satış prosesində sertifikatlaşdırmadır. Ekoloji məhsulların sertifikatlaşdırılması prosesi istehsalçıya təsərrüfatda tətbiq edilən metodların orqanik standartların tələblərinə uyğunluğunu təsdiq etməyə imkan verən və yüksək qiymətə orqanik məhsullar bazarına çıxış imkanı verən prosedurdur. Sertifikatlaşdırmanın sübutu müvafiq markalanmadır ki, bu da ekoloji istehsala institusional dəstək vasitələrindən biridir. Sertifikatlaşdırma orqanik istehsalın mühüm institusional xüsusiyyətidir.

Professor B.X.Ataşovun (həmmüəlliflərlə birgə) fikrincə, kənd təsərrüfatının davamlı inkişafını təmin etməyə yönəlmiş dövlət siyasəti, əlverişli biznes mühitinin formalaşması kontekstində və ətraf mühitin qorunması istehlakçı seçimlərinin və ekoloji cəhətdən təmiz məhsullara olan bazar tələbinin formalaşmasında mühüm rol oynayır. Orqanik məhsulların sertifikatlaşdırılması, aqroekoloji subsidiyalar, ekoloji təşviqlər və kənd təsərrüfatı məhsulları arasında yaşıl markaların yaradılması kimi təşəbbüslər fermerləri ətraf mühitə ziyan vurma dərəcəsini azaltmağa və karbon və nitrat emissiyalarını azaltmağa kömək edən metodlardan istifadə etməyə təşviq edir. Bu məsələ əlavə (additiv) iqtisadiyyatın inkişaf dövründə xüsusilə aktuallaşıb. Müasir rəqəmsal informasiya texnologiyalarının inkişafı, kənd təsərrüfatı bizneslərində texnologiya transferi strategiyalarının həyata keçirilməsini və ənənəvi kənd təsərrüfatı üsullarının daha ekoloji istiqamətə yönəldilməsini mümkün edir [5].

Beləliklə, belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatının yaşıllaşdırılması Azərbaycanın davamlı inkişafında mühüm amildir. Onun həyata keçirilməsi hazırda formalaşma mərhələsində olan müvafiq institusional dəstək tələb edir. İnstitusional dəstək arasında ekoloji kənd təsərrüfatı istehsalının aparılmasının qanunvericilik prinsiplərini və onların digər ölkələrin qanunvericiliyinə uyğunluğunu xüsusi qeyd etmək lazımdır. Kənd təsərrüfatının yaşıllaşdırılmasında ekoloji idarəetmə sistemlərinin və üzvi istehsalın inkişafı xüsusi yer tutur.

Kənd təsərrüfatının yaşıllaşdırılmasına metodoloji yanaşmalar

Həyat keyfiyyətini yaxşılaşdırmaq istəyi daimi inkişaf ehtiyacını doğurur, ancaq bu, yalnız təbii ehtiyatlardan daimi səmərəli istifadə və istehsalın sürətlə intensivləşdirilməsi sayəsində mümkün olur. Təbii sərvətlərdən istifadə vətəndaşın hüququdur, eyni zamanda gələcək nəsillər üçün onlardan istifadəni təmin etmək onun borcudur. İnsan fəaliyyətinin hər hansı bir forması təbii sərvətlərin pisləşməsinə səbəb ola bilməz, lakin təbiətdən səmərəli istifadəyə, suyun və havanın keyfiyyətinin yaxşılaşdırılmasına, iqlim dəyişikliyinə təsirin azaldılmasına və yerli bitkilərin tamhüquqlu növ tərkibinin qorunmasına yönəldilməlidir. Fauna və flora insan sağlamlığının yaxşılaşdırılmasının əsas mənbəyidir.

Məhz bunlar istehsalın yaşıllaşdırılmasının həyata keçirilməsini tələb edir ki, bu da təkcə onun ekoloji dağıdıcı təsirinin azaldılmasına təsir göstərməyəcək, həm də iqtisadiyyatın ekoloji cəhətdən təhlükəsiz sahəyə çevrilməsinin məqsədyönlü prosesinə töhfə verəcəkdir.

İstehsalın yaşıllaşdırılması tədqiqat obyektini vahid bütöv təşkil edən bir-biri ilə əlaqəli və bir-birindən asılı olan alt sistemlər məcmusu kimi nəzərdən keçirməyə imkan verən sistem yanaşmasına əsaslanan göstəricilər toplusu ilə qiymətləndirilir. Və tədqiqat obyekti kənd təsərrüfatının yaşıllaşdırılması prosesi olduğundan, onların məcmusunda aqrar sahənin yaşıllaşdırılması prosesini formalaşdıracaq altsistemləri və amilləri müəyyən etmək vacibdir. Eyni zamanda, aydın şəkildə başa düşülməlidir ki, kənd təsərrüfatı müəyyən bir mühitdə fəaliyyət göstərən, ümumi məqsədə çatmaq üçün bir-biri ilə əlaqəli əhəmiyyətli sayda komponentlərdən ibarət bir sistemdir.

Kənd təsərrüfatının yaşıllaşdırılmasının məqsədi kənd təsərrüfatı istehsalında ekoloji dağıdıcı amillərin təsirini aradan qaldırmaq və ya azaltmaq, kənd təsərrüfatı məhsullarının istehsalı üçün alternativ (ekoloji, resursa qənaət, enerjiyə qənaət, tullantısız) rəqəmsal texnologiyaların tətbiqi və bərpa olunan enerji mənbələrinə keçiddir.

Bu məqsədə nail olmaq prosesində konkret olaraq formalaşacaq kənd təsərrüfatı sahələrinin

yaşıllaşdırma vəzifələri arasında aşağıdakı amilləri qeyd edə bilərik:

- torpağın şumlanma səviyyəsinin yüksəldilməsi; torpaq ehtiyatlarının deqradasiyasının azaldılması; atmosferə istixana qazlarının tullantılarının azaldılması; zəncirvari kənd təsərrüfatının formalaşması; bitkiçilik və heyvandarlıq sənayesinin tullantılarının emalı ilə enerjiyə qənaət; məhsulların ekoloji cəhətdən təmizliyinin artırılması; texnogen yükün azaldılması; biomüxtəlifliyin qorunması; üzvi kənd təsərrüfatı istehsalının həyata keçirilməsi və s. [6].

Bu vəzifələr yaşıllaşdırma prinsipləri əsasında formalaşmalıdır ki, bu da yerli və xarici alimlərin əsərlərinin ümumiləşdirilməsi ilə vurğulana bilər (Cədvəl 1.).

Cədvəl 1.

Kənd təsərrüfatının yaşıllaşdırılmasının əsas prinsipləri

Prinsip	Əsas məzmun
İnteqral yanaşma	məhsulların istehsalı və istehlakının bütün tsiklində hərəkətlərin ayrılmaz təsirini nəzərə almaq zərurəti
Səbəblərə diqqət yetirmə	nəticələri ilə mübarizə deyil, səbəblərin aradan qaldırılması
Məsuliyyət bölgüsü	ekodestruktiv fəaliyyət subyektlərinin və obyektlərinin ünvanlılığının və məsuliyyət dərəcəsinin müəyyən edilməsi
Alətlərin adekvatlığı	verilmiş şəraitə uyğun gələn motivasiya alətlərinin formalaşdırılması
Maksimum səmərəlilik	minimum xərclərlə yaşıllaşdırma məqsədlərinə nail olmaq və vəsaitdən maksimum gəlir əldə etmək
Sistemli yanaşma	yaşıllaşdırma məqsədlərinə nail olmağa bilavasitə və ya dolayısı ilə töhfə verə bilən təbiətdən istifadənin bütün obyektlərinə və subyektlərinə təsir göstərmək

Mənbə: müəllif tərəfindən hazırlanmışdır).

Yuxarıda deyilənlərə əsasən kənd təsərrüfatının yaşıllaşdırılmasının iqtisadi təhlilini apararkən müəyyən metodoloji ardıcıllığa riayət etməyi təklif etdik ki, bu da üç əsas mərhələni əhatə edir (şəkil 1.).

I mərhələ

- **TƏDQİQAT PROBLEMİNİN TƏRİFİ**
- Müasir mərhələdə kənd təsərrüfatının ekolojiləşdirilməsinin iqtisadi əsaslarının öyrənilməsinin aktuallığının müəyyən edilməsi;
- tədqiqatın məqsəd və vəzifələrini müəyyən etmək;
- elmi tədqiqatın metodoloji vasitələrinin və məlumat mənbələrinin formalaşdırılması

II mərhələ

- **PROBLEMİN ÖYRƏNİLMƏSİ VƏ NƏTİCƏLƏRİN MÜƏYYƏN EDİLMƏSİ (ANALTİK TƏHLİL)**
- İqtisadiyyatın aqrar bölməsinin fəaliyyətinin ekoloji və iqtisadi şəraitinin monitorinqi;
- kənd təsərrüfatının ekolojiləşdirilməsi səviyyəsi üzrə tədqiqatlar;
- kənd təsərrüfatı istehsalında alternativ sistemlərin iqtisadi və ekoloji təhlili; kənd təsərrüfatı istehsalının ekolojiləşdirilməsinə maliyyə dəstəyinin öyrənilməsi

III mərhələ

- **İNKİŞAF VƏ QƏRARLARIN QƏBULU (PROQNOZLAŞDIRMA)**
- Əvvəlki tədqiqatlar əsasında iqtisadiyyatın aqrar sektorunun daha da yaşıllaşdırılmasının əsas istiqamətlərinin müəyyən edilməsi və onların praktiki fəaliyyətdə həyata keçirilməsi

Şəkil 1. Kənd təsərrüfatının yaşıllaşdırılmasının iqtisadi təhlilinin mərhələləri
(*müəllif tərəfindən hazırlanmışdır*).

Kənd təsərrüfatının yaşıllaşdırılmasının tədqiqi bütün tədqiqat metodlarından istifadəni tələb edir ki, bunlar arasında aşağıdakıları vurğulamaq məqsədəuyğundur:

- təhlil və sintez, induksiya və deduksiya, abstrakt-məntiqi, monoqrafik - kənd təsərrüfatının yaşıllaşdırılmasının nəzəri əsasları, normativ sənədlər öyrənilərkən yaşıllaşdırma konsepsiyasının mahiyyəti və tədqiq olunan sənayenin fəaliyyətinin ətraf mühitə nəticələri müəyyən edilərkən və elmi tədqiqatın məqsəd və vəzifələrini formalaşdırarkən təbii mühit amilləri;
- müqayisəli təhlil - kənd təsərrüfatı istehsalının yaşıllaşdırılması təcrübəsi öyrənilərkən, müxtəlif ölkələrdə ekoloji kənd təsərrüfatı istehsalının qanunvericilik təminatının müqayisəsi və təsərrüfat sistemlərinin idarə olunmasının müxtəlif üsullarının iqtisadi səmərəliliyinin müqayisəsi;
- iqtisadi-statistik təhlil - müqayisələr, kənarlaşmalar, variasiyalar, indekslər, korrelyasiya-reqressiya təhlili, statistik qruplaşmalar, qrafik metod, taksonomik təhlil və s.;
- iqtisadi-riyazi modelləşdirmə - ekoloji və iqtisadi amillər nəzərə alınmaqla bitkilərin strukturunun optimallaşdırılması;
- struktur-funksional və institusional təhlil - aqrar sahənin yaşıllaşdırılmasının prioritet istiqamətlərinin inkişaf etdirilməsində və onların həyata keçirilməsinin iqtisadi nəticələrinin müəyyən edilməsində.

Elmi-tədqiqatın nəticəsi informasiya bazasının keyfiyyət və kəmiyyət xüsusiyyətlərindən çox asılıdır.

Aparılan tədqiqatlar kənd təsərrüfatının yaşıllaşdırılmasında ekoloji fəaliyyətin əsasını təşkil edən iqtisadi, ekoloji və sosial təsirləri ayırmağa imkan verir:

- iqtisadi təsir - ehtiyatlara qənaət; xərclərin azaldılması və vahid dəyərinin azaldılması; ətraf mühitin çirklənməsindən iqtisadi zərərin qarşısının alınması; ekoloji məhsullar üçün yeni bazarların fəth edilməsi; ekoloji cəhətdən təhlükəsiz texnologiyalar bazarlarına daxil olmaq; ekoloji innovasiyaların satışından və ətraf mühitin mühafizəsi tədbirlərinin həyata keçirilməsi nəticəsində xammaldan, yanacaqdan, enerjidən və digər maddi ehtiyatlardan tam istifadə edilməsi hesabına mənfəət əldə etmək; enerji daşıyıcılarının idxalının azaldılması və sənayenin və ümumilikdə milli iqtisadiyyatın iqtisadi potensialının artırılması; Azərbaycanın investisiya cəlbediciliyinin artmasına töhfə verəcək ölkələr arasında reytinqinin artırılması;
- ekoloji təsir - təbii mühitin vəziyyətinin yaxşılaşdırılması; zərərli emissiyaların və buxarlanmanın olmaması səbəbindən ətraf mühitin ekologiyasının qorunması; təbii ehtiyatlardan səmərəli istifadə; ətraf mühitə antropogen yükün azaldılması və keyfiyyətinin yaxşılaşdırılması; torpağın mühafizəsi; torpaqların və digər təbii ehtiyatların təkrar istehsalı və münbitliyinin artırılması; yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsulların istehsalı;
- sosial təsir - əhalinin rifahının yüksəldilməsi; iş və istirahət şəraitinin yaxşılaşdırılması; qidalanma keyfiyyətinin yaxşılaşdırılması; xəstələnmənin azaldılması və xəstələrin sosial sığortası və müalicəsi üçün xərclərə qənaət; əhalinin fiziki inkişafının yaxşılaşdırılması; iş və istirahət şəraitinin yaxşılaşdırılması; kəndin sosial infrastrukturunun inkişafı; ekoloji sənaye sahələrində yeni iş yerlərinin yaradılması hesabına məşğulluq səviyyəsinin artırılması; təbii və antropogen landşaftların estetik dəyərinin qorunması.

İstehsalın təsirlərinin ona çəkilən xərclərin ölçüsü ilə müqayisəsi onun səmərəliliyini müəyyən edir. Aqrar sahənin yaşıllaşdırılmasının səmərəliliyinə gəlincə, biz əldə edilən istehsal nəticələrini ekoloji istiqamət üzrə xərclərlə müqayisə edirik.

Buna görə də kənd təsərrüfatının yaşıllaşdırılmasının iqtisadi səmərəliliyi hər hansı iqtisadi sistemin (aqrar müəssisə, kənd ərazisi, milli iqtisadiyyat səviyyəsində aqrar sahə) ekoloji yönümlü fəaliyyətinin iqtisadi səmərəsinin təmin edilmiş resurs xərclərinə nisbəti kimi başa düşüləcəkdir.

Kənd təsərrüfatının yaşıllaşdırılmasının ekoloji və iqtisadi göstəriciləri

Kənd təsərrüfatının yaşıllaşdırılmasının təsiri və səmərəliliyinin miqyasını aqrar sahənin fəaliyyətinin müxtəlif aspektlərini xarakterizə edən ekoloji və iqtisadi göstəricilər əsasında qiymətləndirmək olar. Bundan əlavə, sənayenin ekoloji-təsərrüfat fəaliyyətini xarakterizə edən mühüm göstərici ətraf mühitin pozulması və təhlükəli təbii və texnogen proseslərdən dəymiş

iqtisadi zərərin miqdarıdır.

Kənd təsərrüfatının ekoloji və iqtisadi göstəricilərini müxtəlif əlamətlərə görə qruplaşdırmaq məqsədəuyğundur. Ekoloji və iqtisadi göstəricilərin üç əsas qrupunu ayırmaq olar:

1) istehsal texnologiyalarını xarakterizə edən göstəricilər;

2) ətraf mühitin mühafizəsi texnologiyalarını, istehlak olunan resursların təkrar istehsalı texnologiyalarını, məhsul istehsalının texnoloji prosesini onun təsirinin zərərliliyinə (hava, su ehtiyatlarına, torpaq sahələrinə və s.) görə və istehsal tullantılarını xarakterizə edən göstəricilər;

3) müəssisənin fəaliyyətinin yaşıllaşdırılmasının iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilər.

Bunlarla yanaşı ekoloji və iqtisadi göstəriciləri də üç qrupa bölmək olar, lakin onlar əvvəlki təsnifatdan bir qədər fərqlənir:

1) ətraf mühitin vəziyyətinin və ətraf mühitin mühafizəsi fəaliyyətinin qiymətləndirilməsi və təhlili göstəriciləri;

2) təbii ehtiyatlardan istifadənin texniki-iqtisadi təhlilinin göstəriciləri;

3) investisiyaların və layihələrin texniki-iqtisadi əsaslandırılmasında ətraf mühitə təsirin qiymətləndirilməsi göstəriciləri.

İqtisadçı alim N.Y. Maleviç ekoloji və iqtisadi göstəriciləri beş əsas qrupa ayırır:

1) istehsal və qeyri-istehsal ehtiyatlarından (əsas istehsal vasitələri, dövriyyə vəsaitləri, yem, gübrələr, kimyəvi maddələr və s.) istifadənin ekoloji-iqtisadi səviyyəsi;

2) istehsalın dəyər və xarakter baxımından ifadə edilən ekoloji-iqtisadi səviyyəsi (ekoloji amilin istehsalın maya dəyərinə və həcminə, mənfəət və rentabelliyə təsiri; kənd təsərrüfatı məhsullarının ekoloji standartlara uyğunluğu, onun rəqabət qabiliyyəti);

3) istehsalın ətraf mühitə təsirinin ekoloji və iqtisadi səviyyəsi və ətraf mühitin mühafizəsi xərclərinin ödənilməsi (müəyyən növ məhsulların rentabelliyi; ətraf mühitin mühafizəsi və əsas fəaliyyətin iqtisadi səmərəliliyi);

4) torpaq istifadəçisinin ətraf mühitin mühafizəsi üzrə fəaliyyətinin təşkilati-texniki səviyyəsi (kənd təsərrüfatı məhsullarının istehsalı üçün texnika və texnologiyanın təhlükəsizliyi; ətraf mühitin mühafizəsi və resursların mühafizəsi fondlarının avadanlıqları; ətraf mühitin mühafizəsi tədbirlərinin təşkilati və idarəetmə səviyyəsi);

5) ətraf mühitin mühafizəsi fəaliyyətinin maliyyə təminatının səviyyəsi və torpaq istifadəçisinin ekoloji ödəmə qabiliyyəti (ekoloji proqramların maliyyə təminatı, investisiyaların inkişaf səviyyəsi, ekoloji ödənişlər və ödənişlər üzrə borclar).

Hesab edirik ki, istənilən səviyyədə kənd təsərrüfatında səmərəli fəaliyyətin ekoloji-iqtisadi qiymətləndirilməsi üçün yuxarıda qeyd olunan ekoloji-iqtisadi göstərici qrupları ilə yanaşı bir sıra amillərin təsiri mühüm əhəmiyyət kəsb edəcəkdir:

- kənd təsərrüfatı istehsalında təbiətdən istifadə proseslərinin səmərəliliyinin kompleks qiymətləndirilməsi göstəriciləri; sənaye fəaliyyətinin ətraf mühitin vəziyyətinə təsiri; ətraf mühitin mühafizəsi tədbirlərinin həyata keçirilməsi; ətraf mühitin mühafizəsi xərclərinin səmərəliliyi; resursa qənaət edən texnologiyaların və alternativ istehsal texnologiyalarının səmərəliliyi; enerjiyə qənaət səmərəliliyi; təbiətin mühafizəsi fəaliyyətlərinin maliyyə nəticələri və təbiətdən səmərəli istifadənin səmərəliliyi; ekoloji və iqtisadi riskin proqnozlaşdırılması və təbiətdən istifadə prosesləri ilə bağlı idarəetmə qərarlarının keyfiyyəti; resursa qənaət edən texnologiyaların və tullantıların utilizasiyası və emalı sənayesinin inkişafı; ekoloji vergitutma və digər ekoloji öhdəliklərin səmərəliliyi; ekoloji və iqtisadi proseslərin modelləşdirilməsi və proqnozlaşdırılması və onların uzunmüddətli davamlı inkişafa təsirinin qiymətləndirilməsi və s. [6, 464 səh].

Xüsusi vurğulamaq vacibdir ki, tədqiqat obyektinin səviyyəsindən asılı olaraq ekoloji və iqtisadi göstəricilər makroiqtisadi, mezoiqtisadi, regional, yerli və mikroiqtisadi göstəricilərə bölünə bilər.

Kənd təsərrüfatının yaşıllaşdırılması prosesi ekodağıdıcı xarakterli xarici təsirləri azaltmaq üçün istehsala müxtəlif rəqəmsal innovativ texnologiyaların tətbiqi ilə müşayiət olunur. Onlar

torpaq və su ehtiyatlarından səmərəli və qənaətlə istifadə edilməsi, alternativ təsərrüfat sistemlərinin tətbiqi və bioenerjinin inkişafı, az tullantılı və tullantısız istehsal dövrlərindən istifadə, çirkab sutəmizləyici qurğuların quraşdırılması və s.-dir.

Şübhəsiz ki, hər hansı bir fəaliyyətin məqsədinin mənfəəti maksimuma çatdırmaq olduğu aksiomunu nəzərə alaraq, belə ekoloji təşəbbüslər ekoloji və təbii sərvətlərə investisiya layihələrinin həyata keçirilməsinin səmərəliliyinin qiymətləndirilməsini tələb edir. Ekoloji investisiya layihələrinin vəzifələrindən biri də yalnız iqtisadi səmərəlilik səviyyəsinin öyrənilməsinə əsaslanan deyil, həm də ekoloji və sosial komponentləri nəzərə alan texniki-iqtisadi əsaslandırmanın qiymətləndirilməsidir. Layihəni qiymətləndirməyə imkan verən əsas göstəricilərə xalis azaldılmış gəlirin məbləği, rentabellik indeksi və geri qaytarılma səviyyəsi daxildir.

Bununla belə, vurğulamaq lazımdır ki, ekoloji tədbirlərin iqtisadi səmərəliliyi müəyyən edilərkən istehsalatda, o cümlədən kənd təsərrüfatında isə zaman amili nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1. “2Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, Azərbaycan Respubilkası Prezidentinin 2021 ci il 2 fevral tarixli Sərancamı
2. Azərbaycan Respublikasının Konstitusiyası 27 noyabr 1995-ci il
3. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanunu, 8 iyun 1999-cu il
4. “Xalq qəzeti”. 9 avqust 2024 - (№.168)
5. Atashov Bayali, Sabina Valiyeva and Nizami Gafarov. Government spending in the agricultural sector: Optimal ratio with lending and the impact on the agricultural production. Problems and Perspectives in Management, 22(3), 67-79. doi: 10. 21511/ppm.22(3).2024.06
6. Qafarov N.C. Azərbaycanın aqrar-sənaye kompleksi: formalaşması və davamlı inkişafı problemləri. / N.C.Qafarov // Bakı, “Kooperasiya” nəşriyyatı, 2024.

Низами Джалал оглы Гафаров
Азербайджанский Университет Кооперации
профессор кафедры «Аграрная экономика и туристический бизнес», д.е.н.
ОРЦИД-0000-0003-1583-3024
электронная почта: qafarovnizami@mail.ru

Особенности и экономико-методологические аспекты институциональной поддержки зеленого сельского хозяйства

Резюме

Цель исследования. В статье рассматриваются особенности институциональной поддержки зеленого сельского хозяйства, принципы экологизации сельского хозяйства, задачи экологизации сельскохозяйственных территорий, различные характеристики эколого-экономических показателей зеленого сельского хозяйства, производство качественной продукции для полного удовлетворения потребностей населения в Азербайджане, разработка путей экологизации сельскохозяйственного производства, необходимость институциональной поддержки зеленого сельского хозяйства.

Методология исследования. При подготовке статьи автор использовал методы научного исследования, в том числе наблюдение, сравнение, анализ и логическое обобщение. Методологическую основу исследования составил также стратегический подход к институциональной поддержке зеленого сельского хозяйства в Азербайджане и его политики устойчивого развития.

Практическая значимость исследования заключается в том, что вышеизложенные предложения и рекомендации позволят сельскому хозяйству нашей страны стать

экономически эффективной сферой деятельности с более высоким уровнем доходов, а также могут быть полезны при подготовке проектов, направленных на дальнейшее развитие производства экологически чистой продукции в отдельных областях сельского хозяйства.

Относительно результатам исследования можно отметить, что были представлены инновационные направления, касающиеся необходимости институциональных подходов к экологизации сельского хозяйства, минимизации всех форм загрязнения в процессе экологического сельскохозяйственного производства, переработки и распределения продукции, применения цифровых инновационных технологий, обеспечивающих сбережение природных ресурсов, эффективного использования экологических и экономических показателей.

Оригинальность и научная новизна исследования. В статье обсуждается необходимость институциональной поддержки и новых научных подходов, которые могут способствовать устойчивому развитию зеленого сельского хозяйства в Азербайджане.

Ключевые слова: зеленое сельское хозяйство, институциональная поддержка, окружающая среда, экологически чистый продукт, эколого-экономические показатели.

Nizami Jalal Gafarov
Azerbaijan Cooperation University
"Agrarian economy and tourism business"
professor of the department, doctor of economic sciences.
ORCID-0000-0003-1583-3024
e-mail: qafarovnizami@mail.ru

Features of institutional support for green agriculture and economic methodological aspects

Summary

The purpose of the study. The article discusses the features of institutional support for green agriculture, the principles of greening agriculture, the tasks of greening agricultural areas, various characteristics of ecological and economic indicators of green agriculture, the production of quality products to fully meet the needs of the population in Azerbaijan, the development of ways to green agricultural production, and the need for institutional support for green agriculture.

Research methodology. When preparing the article, the author used scientific research methods, including observation, comparison, analysis, and logical generalization. Also, the strategic approach to the policy of institutional support and sustainable development of green agriculture in Azerbaijan formed the methodological basis of the study.

The applied significance of the research lies in the fact that the above-mentioned proposals and recommendations will allow agriculture in our country to become an economically efficient field of activity with a higher level of income, and may be useful in the preparation of projects aimed at further developing the production of environmentally friendly products in individual areas of agriculture.

Regarding the results of the research, it can be noted that the need for institutional approaches to the greening of agriculture, the minimization of all forms of pollution in the process of ecological agricultural production, processing and distribution of products, the application of innovative digital technologies that save natural resources, and the effective use of environmental and economic indicators have been presented.

Originality and scientific novelty of the research. The article discusses the need for institutional support and new scientific approaches that can support the sustainable development of green agriculture in Azerbaijan.

Keywords: green agriculture, institutional support, environment, ecologically clean products, ecological and economic indicators.